BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2012*

**UOT 94 "19/..."**

# 1918-Cİ İLİN YAYINDA ALMANİYA-OSMANLI MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİNDƏ GƏRGİNLİYİN YARANMASI

**R.Q.HƏTƏMOV**
***Bakı Dövlət Universiteti***
***rovshanhatamov@gmail.com***

*1918-ci ilin yazında Almaniya Bakının neft rayonunu ələ keçirməyə çalışırdı. Bakını ələ keçirmək üçün kifayət qədər hərbi qüvvəyə malik olmayan Almaniyanın hərbi və siyasi rəhbərliyi bolşevik Rusiyası ilə diplomatik tədbirlərə üstünlük verirdi. İkitərəfli separat danışıqları Sovet hökumətinin təşəbbüsü ilə başlamış və Brest-Litovsk sülh müqaviləsini imzalamış digər dövlətlərdən gizlin olaraq üç ay müddətində aparılmışdır. Osmanlı Türkiyəsi də cəbhələrdə ağır vəziyyəti, həmçinin ölkə daxilində fəlakətli vəziyyəti nəzərə alaraq daha tez-tez düşmən ilə separat danışıqlara cəhd edirdi.*

**Acar sözlər:** I Dünya müharibəsi, separat sülh danışıqları, Osmanlı imperiyası, Almaniya, Cənubi Qafqaz, Antanta

Dünyanın siyasi xəritəsini, bəşəri tərəqqinin və inkişafın məcrasını dəyişən Birinci dünya müharibəsinin tarixinin elmi maraq kəsb edən səhifələrindən biri müttəfiq dövlətlər arasında, xüsusilə də Almaniya ilə Osmanlı arasında silahlı qarşıdurma səviyyəsinə qədər yüksələn qarşıdurmanın kəskinləşməsidir.

Vuruşan dövlətlərin 1918-ci il üçün hərbi-siyasi planlarında Qafqaz xüsusi əhəmiyyət daşıyan bölgə kimi qiymətləndirlirdi. Bu bir tərəfdən onun əlverişli geostrateji mövqedə yerləşməsi, zəngin xammal və təbii ehtiyatlara malik olması ilə əlaqədar idisə də, digər tərəfdən bölgəyə maraq göstərən iri dövlətlərin düşmən qüvvələrin əsas diqqətini həlledici döyüş cəbhələrindən yayındırmaq, onların arasında ziddiyyətlərin kəskinləşdirilməsi üçün Qafqaz siyasətindən istifadə etmək niyyətləri ilə bağlı idi.1917-ci ilin sonu-1918-ci ilin payızında müharibənin əhatə etdiyi digər bölgələrlə yanaşı Qafqaz bölgəsində də hərbi-siyasi proseslərin coşqun gedişi ilə xarakterik idi.

Hərbi dövrün çətinliklərini keçmiş Rusiya imperiyası hesabına aradan qaldırmağa çalışan Almaniya Cənubi Qafqazda müttəfiqi Osmanlı imperiyasının ilk əvvəl gizli, daha sonra isə açıq müqaviməti ilə qarşılaşdı. Azərbaycan burada alman-türk qarşıdurmasının daha kəskin şəkildə özünü büruzə verdiyi məntəqə idi.

1918-ci ilin yayında Almaniyanın Osmanlı dövləti ilə münasibətində ehtiyatlılığı və etimadsızlığının əsas səbəblərindən biri bu ölkənin rəsmi dairələrinin Antanta dövlətləri ilə mümkün ola biləcək separat sülh danışıqları idi. Ümumiyyətlə, Birinci dünya müharibəsi illərində vuruşan dövlətlərin əksəriyyəti düşmən dövlətlərdən hər hansı biri ilə separat sülh bağlamaq üçün ciddi səylər göstərirdilər. Almaniya rəsmiləri artıq 1914-cü ilin sentyabrında Marna məğlubiyyətindən sonra tezliklə sülhün əldə edilməsinə çalışırdılar. General fon Falkenhayn bu döyüşdən sonra müharibəni uduzulmuş hesab edirdi. Fon Yaqov isə Almaniyanın «bu müharibədən bir gözü vurulmuş halda çıxma»sına şükür edilməsini qeyd edirdi (1,198). 1914-cü ilin noyabrında general Falkenhayn iki cəbhədən birinin aradan qaldırılması üçün alman diplomatiyası qarşısında vəzifə qoymuşdu (2,11).

Türkiyə hakim dairələrində separat sülh barəsində fikirlərin mövcudluğu istər onun müttəfiqləri, istərsə də düşmənləri üçün gizli deyildi. Hələ dünya müharibəsinin ilk günlərində Türkiyə rəsmi dairələrində aparılan müzakirələr göstərirdi ki, Türkiyənin Almaniya tərəfində müharibəyə qoşulmasının əleyhdarları istər cəmiyyətdəki digər siyasi partiyalar, istərsə də hakim «İttihad və tərəqqi» partiyası daxilində kifayət qədərdir. Müxalif «Hürriyyət və itilaf» partiyası Ənvər-Tələt-Camal üçlüyünün almanpərəst mövqeyini kəskin tənqid edirdi. Partiyanın türk ordusu içərisində müəyyən nüfuzu var idi. 1915-1916-ci illərdə partiya liderləri Antanta dövlətlərinə müraciət edərək Istanbulda dövlət çevrilişinin həyata keçirilməsi üçün yardım edilməsini xahiş edirdilər. Onların fikrincə, dövlət çevrilişi nəticəsində gənc türklərin hökuməti devrilməli və almanlar ölkədən çıxarılmalı idi (3, 296-298).

«Hürriyyət və itilaf»ın liderlərindən biri olan Kamal Midhəd paşa sədrəzəm Səid Həlim paşaya açıq məktubla müraciət edərək, «nə qədər ki, gec deyil», Antanta ölkələri ilə separat sülh danışıqlarına başlamağı təklif edirdi. Dövlət çevrilişinin həyata keçirilməsi məqsədilə yaradılmış komitənin işində müxalifət liderlərindən biri olan Şərif paşa və sabiq daxili işlər naziri Rəşid bəy yaxından iştirak edirdilər (3, 298). M.Ertsberger belə hesab edirdi ki, general Şərif paşa fransız mason təşkilatları ilə sıx bağlı idi və o, məhz bu təşkilatların tapşırığı ilə Ənvər paşaya müxalif fəaliyyətdə olmuşdur (1, 136). Ümumiyyətlə, o, belə hesab edirdi ki, gənc türklərin əksəriyyəti qərb mason təşkilatları ilə yaxın münasibətdə olmuşlar. 1908-1911-ci illərdə fransız mason təşkilatlarının «İttihad və tərəqqi» partiyası üzərində ciddi təsiri olmuşdur. Şərif paşa fransız mason təşkilatları ilə «İttihad və tərəqqi» partiyası arasında əlaqələndirici rolunu oynamışdır. 1914-cü ilin oktyabrından etibarən fransız masonları Türkiyə ilə separat sülh bağlanılmasını qarşılarına məqsəd qoymuşdular. Romadakı keçmiş türk səfiri Nəbi bəy bu siyasəti açıq şəkildə müdafiə etmiş və Romadakı Böyük Şərq mason lojası ilə dəfələrlə danışıqlar aparmışdır. Paralel olaraq bütün müharibə dövründə bir sıra gənc türklər ilə Parisdəki «Böyük Şərq» mason lojası arasında danışıqlar aparılmış, lakin onlar gözlənilən nəticəni verməmişdir (1,136).

«İttihad və tərəqqi» partiyası daxilində müharibəyə münasibətdə gözləmə mövqeyinin, o dövrün şəraiti daxilində isə Almaniya ilə ittifaqın əleyhdarları sırasına partiyanın maliyyə «dühası» – maliyyə naziri Cavid bəy, ictimai işlər naziri Çuruksulu Mahmud paşa, ticarət naziri Süley-man Bustani paşa, poçt və teleqraf naziri Oskan Əfəndi daxil idilər (4,25-26).

Camal paşa qeydlərində göstərirdi ki, hətta sədrəzəm Mehmed Səid Həlim paşa da müharibədə iştirakın əleyhinə idi (5,108). Camal paşa da qəti olaraq almanpərəst deyildi. 1914-cü ilin iyulun əvvəllərində o, rəsmi səfərlə Parisə gəlmiş və Antantaya Türkiyənin müttəfiqliyini təklif etmişdi. Buradakı görüşlərində Camal paşa bildirmişdi ki, Şərqə yol Almaniya üçün qəti olaraq bağlanmalıdır (5,87). Camal paşa Almaniyanın Türkiyədən bu müharibə dövründə öz maraqları baxımından istifadə etmək niyyətində olduğunu qeyd edirdi (5, 91-95).

Tələt paşanın da Almaniya ilə əməkdaşlığın xarakteri barəsində bir ayrı fikri vardi: «Biz ölkənin yenidən qurulmasında və müdafiəsində Almaniya tərəfdən yardımdan o vaxta kimi istifadə edəcəyik ki, <…> öz gücümüzlə bunun öhdəsindən gələ bilək. Həmin gün gələn zaman biz almanları ölkədən 24 saat ərzində çıxara bilərik» (6, 46). 1916-cı ilin yazı və yayında «İttihad və tərəqqi» partiyasında separat sülh tərəfdarlarından ibarət qruplaşmaya Tələt paşa da daxil idi (3, 299). Yalnız Ənvər paşa separat sülhə qarşı qəti şəkildə etiraz edirdi.

Türk qoşunlarının ilk hərbi əməliyyatlarının uğursuzluqları, ingilis-fransız qoşunlarının boğazları ələ keçirmək üçün göstərdikləri inadkarlıqlar və ölkənin üzləşdiyi ağır iqtisadi-maliyyə və hərbi-siyasi vəziyyət separat sülh tərəfdarlarının fəallaşmasına səbəb olmuşdu. Dardanel əməliyyatının keçirildiyi vaxt İngiltərənin «Deyli Kronikl» qəzeti 1915-ci il aprelin 14-də yazırdı ki, «İttihad və tərəqqi» partiyasının mərkəzi komitəsi bitərəf dövlətlərdən birinin vasitəsi ilə İngiltərədən Türkiyəyə təqdim edilməli olacaq sülh müqaviləsinin şərtlərini öyrənməyə çalış-mışdır (3,298). Aprelin 16-da rus diplomatı knyaz Kudaşov xarici işlər naziri Sazonova məlumat verirdi ki, yüksək vəzifəli türk zabitləri içərisində qruplaşma vardır ki, Tələt paşanın razılığı ilə Antantaya sülh təklif etməyə cəhd göstərir və hətta öz məqsədlərinə çatmaq üçün Boğazları, Istambulu və Ərəbistanı güzəştə getməyə hazırdır.

1915-ci ilin martında Berlinə məlum oldu ki, maliyyə naziri Cavid bəy Fransa hökumətinin nümayəndəsi ilə ya İsveçrə, ya da İtaliyada görüşmək üçün təklif almışdır. Almaniyanın bəzi rəsmi şəxsləri bu təklifi Fransanın Cavid bəy vasitəsi ilə Almaniya ilə danışıqlara başlamaq istəyi kimi qiymətləndirirdilər. Lakin fon Yaqov belə hesab edirdi ki, bu görüş yalnız Fransa ilə Türkiyə arasında sülh müqaviləsinin bağlanmasının mümkünlüyünü müəyyən etməli idi. Həqiqətən də Cavid bəyin fransızlarla – senatın sədri, iki senator, «Je Petit Parisien» qəzetinin redaktoru C.Düpüi ilə görüşlərində söhbət Türkiyə ilə Antanta dövlətləri arasında separat sülh bağlanmasından gedirdi. Fransa nümayəndələri təkidlə Cavad bəyi inandırmağa çalışırdılar ki, Almaniya sülh

müqaviləsi bağlanarkən onun maraqlarını unudacaqdır, Antanta ilə birlik isə Türkiyəni qaçınılmaz məğlubiyyətdən qoruyardı. 1915-ci ilin mayında Cavid bəy və Türkiyə hərbi nazirliyinin məsul əməkdaşı Fərid paşa Fransa parlamentinin deputatlar palatasının hərbi və dəniz komissiyasının üzvü C.Bussno ilə görüşdülər. Rusiya aparılan gizli danışıqlardan narahat idi. Türkiyə ilə imzalanacaq separat sülh müqaviləsində rus maraqlarının az təmin olunacağından təşvişə düşmüş Sazonov Parisdəki rus səfiri İzvolskiyə Ke d' Orseyə rəsmən müraciət etməyi tapşırdı. Fransanın xarici işlər naziri Delkasse həqiqətən də, belə bir danışıqların aparılmasını etiraf etsə də, bildirdi ki, Cavid bəyin Fransa xarici işlər naziriliyinin rəsmi şəxsləri ilə görüşmək barəsində xahişi rədd edilmişdir (7, 16). Cavad bəy 1916-cı ildə Berlinə rəsmi səfəri zamanı bu danışıqlardan Alman hökumətinə qarşı bir təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı (7, 17). O, alman hökumətindən 300 milyon marka məbləğində kreditin verilməsini və Qafqaza alman qoşunlarının göndərilməsini tələb edirdi. Əks halda, o, Türkiyənin separat sülh bağlamaqdan başqa bir yolunun qalmayacağını bildirirdi (1, 298). Cavid bəy Berlin görüşlərində fransız nümayəndələri ilə apardığı danışıqlar barəsində məlumat verərkən belə bir fikri xüsusilə vurğulayırdı ki, Türkiyə Almaniya ilə eyni vaxtda Antanta ilə sülh bağlayacaqdır. Əks halda, yəni Almaniyanın iştirakı olmadan separat sülh müqaviləsindən danışmağa dəyməz (7, 17).

1917-ci ilin fevralında Rusiyada baş vermiş inqilabdan sonra Qafqaz cəbhəsindəki türk və rus qoşunları arasında yaxınlaşma müşahidə edilirdi. 1917-ci il mayın 4-də Yunanıstandakı rus xəfiyyəsi yazırdı ki, Qafqaz cəbhəsindəki rus və türk qoşunları arasında münasibətlərin yaxınlaşması onu deməyə əsas verir ki, tezliklə separat sülh danışıqları başlanacaqdır (3,306). 1917-ci il mayın 18-də iki türk əsgərinin müşayiəti ilə Osman bəy adlı bir zabit Qafqazdakı rus ordusunun qərargahına gələrək danışıqlara başlamaq niyyətində olduğunu və bütün türk ordularının təmsilçisi kimi iştirak etdiyini bildirirdi. Həmin vaxt «Hürriyyət və itilaf» partiyasının liderlərindən biri Rəşid bəy Parisdə Fransa Xarici işlər nazirliyində görüşləri zamanı indiki zamanda gənc türklərin hakimiyyətinə son qoyulması üçün əlverişli məqam yetişdiyini bildirirdi. Bunun üçün Antanta dövlətlərinin Türkiyəyə sülh təklifi və vətənpərvərlərə isə üsyana qalxmaq barəsində müraciət etməsi təklif edilirdi.

1917-ci ilin aprelində Tələt paşa Berlinə rəsmi səfəri zamanı Almaniyanın ABŞ-ın müharibəyə qoşulması ilə əlaqədar tezliklə məğlub olacağı barəsində şayiələrin həqiqətə uyğun olub-olmadığını yoxlamaq istəyirdi. Şübhəsiz, Almaniyada olan türk rəsmiləri ölkənin hərbi qüdrətinin zəifləməsini, eyni vaxtda isə Antantanın güclənməsini aydın görürdülər. Lakin Qafqaz cəbhəsində rus ordularının hərbi intizamının zəifləməsi, 1917-ci il oktyabr çevrilişindən sonra isə Qafqaz rus cəbhəsinin sürətlə dağılması yeni ərazilərin ilhaq edilməsi üçün geniş imkanlar açmışdı. Bu isə, öz növbəsində separat sülh tərəfdarlarının mövqeyini xeyli dərəcədə zəiflətmişdi. Sovet Rusiyasının dünya müharibəsindən çıxması və Mərkəz dövlətləri ilə Sovet Rusiyası arasın-

da aparılan Brest-Litovsk danışıqları Türkiyə rəhbərləri tərəfindən rusların müharibə dövründə zəbt etdikləri Şərqi Anadolunun geri qaytarılması üçün yaranmış fürsət kimi qiymətləndirilirdi. Brest-Litovsk danışıqları həm də Türkiyənin Qafqaz barəsində pantürkizm ideyalarının yenidən gündəliyə çıxarılmasına səbəb oldu.U.Çerçill yazırdı ki, Brest-Litovsk müqaviləsi Şərqə doğru ümumi türk hücumları üçün başlanğıc rolunu oynadı (8, 242)/

Osmanlı rəhbərləri üçün Qafqazın ələ keçirilməsi Rusiya müsəlmanlarının yaşadığı ərazilərə tez yetişməyin əsas vasitəsi idi. 1917-ci il dekabrın 23-də türk nümayəndələrinin Brest-Litovsk danışıqları zamanı rus qoşunlarının Qafqazdan çıxarılmalarını tələb etmələrini məhz bu istək ilə izah etmək olardı. Lakin maraqlıdır ki, bu tələb ilk növbədə Sovet Rusiyası tərəfindən deyil, məhz Almaniya tərəfindən rədd edildi. Buna səbəb Almaniyanın özünün bu dövrdə geniş əraziləri zəbt etməsi idi. Brest-Litovsk danışıqları zamanı türk nümayəndələri müvafiq maraqlarının təmin olunması üçün Sovet Rusiyası ilə separat danışıqlar aparırdılar. Almaniya danışıqların mahiyyəti barəsində tam formada məlumatlandırılmırdı (2, 376). Buna sübut kimi 1918-ci il martın 1-də keçirilən iclası göstərmək olar. həmin gün çıxış edən alman nümayəndəsi fon Rozenberq 1918-ci il fevralın 21-də Sovet Rusiyasına təqdim edilmiş alman ultimatumunu yenidən sovet nümayəndələrinin diqqətinə çatdırırdı. Ultimatumun V bəndini – «Qars, Batum, Ərdəhan dairələri ilə birlikdə Şərqi Anadoludan rus qoşunlarının çıxarılması tələbini bəyan etdikdən sonra o, bildirdi ki, «işğalçılıq niyyətlərinin olmasında ittiham olunmamaq üçün» bu bəndin qəbul edilməsində israr etmirlər. Lakin sovet nümayəndəsi Sokolnikovun bu bəndi qəbul etməsi barəsində çıxışı sözün əsl mənasında almanlarda müəyyən çaşqınlığa səbəb oldu. Bəzi müəlliflər 1 mart iclasında baş vermiş bu hadisəni guya Fələstinin yəhudi hakimiyyəti altına verilməsi əvəzində Şərqi Anadolunun Türkiyəyə qaytarılması barəsində türk-yəhudi razılaşması ilə izah etməyə çalışır və bu məsələdə Sovet hökumətində təmsil olunmuş yəhudilərin fəallığını qeyd edirdi (3, 379). Lakin fikrimizcə, bu faktı sovet nümayəndələrinin alman və türk nümayəndə heyətləri arasında qarşılıqlı etimadsızlıq və gərginlik yaratmaq niyyətləri ilə izah etmək daha düzgün olardı.

İlk dəfə baş-başa gələn alman və türk maraqları hər iki tərəfdən sürətlə dəyişən hərbi-siyasi vəziyyətdə daha çevik siyasət aparmağı tələb edirdi. Əks halda müttəfiqlərin düşmən tərəflə separat danışıqlar aparmaq cəhd edəcəyi şəksiz idi. Qafqazda alman və türk maraqlarının toqquşması və buna hər iki dövlətin həssas münasibəti müttəfiqlər arasında etimadsızlıq yaradırdı. Türkiyə rəsmi dairələri 1918-ci ilin yazında və yayında Almaniyanın Qafqazda türk qoşunlarının irəliləməsinə mane olmaq cəhdlərini 1914-cü il avqustun 2-də və 6-da imzalanmış ikitərəfli razılaşmaya zidd hesab edir və Almaniyanın Sovet Rusiyası ilə gizli separat danışıqlar aparması ehtimalından ciddi narahatlıq keçirirdilər.

1914-cü il avqustun 2-də İstanbulda Almaniya ilə Türkiyə arasında imzalanmış akt rəsmən ittifaq haqqında müqavilə adlandırılsa da, əslində hərbi

konvensiya xarakteri daşıyırdı. Sənəddə Türkiyənin xeyrinə hansısa ərazi kompensasiyaları barəsində alman vədləri əks olunmamışdı.

Sazişin II maddəsinə əsasən əgər vəziyyət Almaniyanı müharibəyə cəlb edərdisə, onda bu həm də Türkiyəyə də şamil olunmalı idi, yəni Almaniya müharibəyə qoşulan zaman Türkiyə də qoşudmalı idi. Lakin avqustun 1-də Almaniya Rusiyaya müharibə etdikdən bir gün sonra Türkiyə «ciddi bitərəflik» elan etdi. Türkiyənin müharibəyə qoşulmasını sürətləndirmək məqsədi ilə Almaniya Türkiyənin ərazisinin genişləndiriləcəyi barəsində vədlər vermək qərarına gəldi. Avqustun 6-da Istanbuldakı alman səfiri Vangenheym sədrəzəm Mehmed Səid Həlim paşaya məktub göndərdi. Məktubda Almaniyanın qalib gələcəyi halda Türkiyəyə çatacaq ərazilər barəsində öhdəliyi əks olunmuşdu. Sənədin V maddəsinə əsasən Almaniya Osmanlı dövlətinin şərq sərhədlərinin elə dəyişdirilməsinə nail olacaq ki, bunun nəticəsində Türkiyənin Rusiyada yaşayan müsəlman əhalisi ilə birbaşa təmas qurması mümkün olacaqdır. Sənədin bu maddəsinin belə bir formada yazılışı baron fon Vangenheynin diplomatik bacarığını sübut edirdi. Belə ki, bu sənədlər Almaniyanın üzərinə hansısa çətin məsuliyyət qoymurdu. Çünki sənəddə göstərilirdi ki, Almaniya bu öhdəliyini yalnız o zaman yerinə yetirəcəkdir ki, müharibədən qalib çıxsın və qarşı tərəfə öz şərtlərini diqtə etmək imkanında olsun.

Digər tərəfdən, Qars, Batum və Ərdəhanın Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə verilməsi heç də V maddənin reallaşması demək deyildi. Belə ki, bu ərazilərin Türkiyəyə keçməsi onun müsəlman əhalisi ilə deyil gürcü və ermənilər ilə təmas yaratmasına səbəb olmuşdu. Sovet tarixçisi V.V.Qotlib belə hesab edir ki, Rusiyada yaşayan müsəlman əhalisi ilə birbaşa təmas qurmaq üçün Türkiyənin Qafqaz Ermənistanını zəbt etməsi lazım idi.

Türkiyə rəhbərləri bütün müharibə dövründə və xüsusilə 1918-ci ilin yazı və yayında məhz bu maddənin Rusiyada yeni ərazilər ələ keçirilməsi üçün Türkiyəyə almanlar tərəfindən razılıq verilməsi kimi qiymətləndirmişdilər. Məhz buna görədir ki, türk qoşunlarının Qafqazdakı hücum əməliyyatlarına Almaniyanın sərt reaksiyası Türkiyə rəsmi şəxsləri tərəfindən anlaşılanmır və düşməncəsinə bir hərəkət kimi qiymətləndirilirdi. 1918-ci ilin yayında Türkiyənin separat danışıqlara başlaması barəsində şayiələr görünür müəyyən mənada öz təsdiqini tapırdı. Bunu nəzərə alan alman diplomatiyası və hərbi komandanlıq Türkiyə ilə münasibətdə bu zaman ehtiyatlı davranmağın tərəfdarı idilər.

1918-ci il iyulun 17-də «Nyu-York tayms”» qəzeti yazırdı ki, Qafqazın mühüm neft rayonlarının ələ keçirilməsi üçün görülən mümkün tədbirlərdən biri gizli diplomatiyanın metodlarından istifadədir. Qəzet yazırdı ki, müttəfiqlər Türkiyə ilə gizli danışıqlara girərək Türkiyənin Antanta ilə əməkdaşlıq edəcəyi və Cənubi Qafqazı onların nüfuz dairəsi hesab edəcəyi halda, Mesopotamiya və Fələstinin onun tərkibində saxlanacaqlarını təklif etmişdilər. Lakin müttəfiqlərin bu manevrləri baş tutmamışdır (4, 233).

Alman diplomatları Türkiyə ilə İngiltərə arasında Türküstana Almaniyanın soxulmasına qarşı hər hansı razılaşmanın baş tuta bilməsindən narahat

idilər. Qərb cəbhəsində həlledici döyüşlər ərəfəsində Türkiyənin Qafqazdakı maraqlarının qarşısının alınması onun son nəticədə müharibədən çıxması və bununla da düşmən qüvvələrin Almaniyaya qarşı daha sıx birləşməsinə gətirib çıxarardı.

Lakin 1918-ci ilin yayında türk qoşunlarının Qafqazdakı fəallığı və Türkiyənin nəyin bahasına olursa-olsun, Qafqazda təkbaşına hegemonluğunu bərqərar etmək istəyi Almaniya rəhbərliyində məsələyə münasibəti tam əks şəkildə dəyişdi. Indi hərbi komandanlıq və ticarət-sənaye dairələri Türkiyəyə qarşı sərt tədbirlərin görülməsini tələb edirdilər. Qafqazdakı alman nümayəndələrindən biri fon Meyerkort imperiya iqtisadiyyat nazirliyinə göndərdiyi məlumatında qeyd edirdi ki, «Qafqaz eyni zamanda müxtəlif dövlətlər tərəfindən idarə olunmamalıdır. Bu halda özünü idarəçiliyi mən diqqətə almıram. Çünki bu marionet hökumətdir… Əgər Almaniya Qafqazda öz maraqlarını bundan sonra da qorumaq istəyirsə, öz mövqeyini dərhal elə möhkəmlətməlidir ki, bütün Qafqazda hökmran vəziyyətə nail olsun. Mən, öz tərəfimizdən türklərə qarşı radikal tədbirlər gördüyümüz halda onlar özlərini məğlub sayacaqlarını düşünən yeganə adam deyiləm… Və bu halda deviz belə səslənməlidir: “Danışıqlar aparmaq deyil, hərəkət etmək lazımdır!»”. Almaniya XIN isə müharibənin sonları yaxınlaşdığı bir dövrdə Dördlər İttifaqının qorunub saxlanılması naminə Türkiyəyə qarşı sərt tədbirlərin görülməsinə qarşı çıxırdı.

İstanbuldakı alman səfiri 1918-ci il avqustun 3-də Berlinə yazırdı: “İndi biz İngiltərə ilə ölüm-dirim mübarizəsi aparırıq. Tarix bizə öyrədir ki, İngiltərəyə qalib gəlmək problemi yalnız bir yolla həll oluna bilər–bütün qitənin quruda və dənizlərdə ingilis ağalığına qarşı birləşməsi… Biz Dördlər İttifaqını toxunulmaz saxlamaq və Rusiya ilə çətinliklə nail olduğumuz sülhü möhkəmlətmək üçün bütün səylərimizi sərf etməliyik. Bizim siyasətimizin bu iki əsas vəzifəsi Qafqazda fəaliyyət göstərə biləcəyimiz hüdudların sərhədlərini təşkil edir”.

Səfir 1918-ci il mayın 7-də Rumıniya ilə Dördlər Ittifaqı arasında imzalanmış Buxarest sülhünün şərtləri müzakirə olunarkən Türkiyənin bir sıra ərazi iddiaları irəli sürməsini və bu iddiaların digər müttəfiqlər tərəfindən, xüsusilə, Almaniya tərəfindən müdafiə olunmadığını qeyd edərək bildirirdi ki, məhz bu amil Almaniya ilə Türkiyə arasında qarşılıqlı münasibətlərdə etibarlığa ciddi zərbə vurmuş oldu. Batum danışıqları zamanı Almaniyanın Türkiyənin fəallığını məhdudlaşdırmaq niyyətinə qarşı türklər almanları Türkiyənin maraqlarını kifayət qədər müdafiə etməməkdə ittiham etdilər. Türkiyə Almaniyanın nə üçün parçalanmış Rusiyanın mövqeyi ilə hesablaşmasını dərk edə bilmirdi.

Alman səfiri Türkiyəyə qarşı sərt tədbirlərin görülməsini tələb edən alman nümayəndələrini qınayaraq qeyd edirdi ki, təmamilə etibarsız gürcülər və Antanta meylli ermənilərdən ötrü “sınanılmış türk müttəfiqlərimizi” itirmək olmaz. “Biz “müqəddəs” şüarı ilə başladığımız müharibəni səlib yürüşü ilə qurtara bilmərik”.

Almaniya və Osmanlı rəhbərlərinin müharibənin sonlarında Azərbaycanda gerçəkləşdiriləcək siyasi xəttin formalaşmasına münasibətdə baxışlarındakı

fərqliliklər tədricən müttəfilər arasında qarşılıqlı etimadsızlıqdan silahlı qarşıdurma səviyyəsinə qədər yüksəlmişdi (9, 94-97). Burada müttəfiqlərin hərbi-strateji, siyasi-iqtisadi və etnik-dini məsələlərə fərqli yanaşma da əhəmiyyətli rol oynamışdır. Azərbaycan cəmiyyətində Osmanlı dövlətinin himayəsi altında mövcudluq fikri, xüsusilə, 1917-ci ilin sonlarında daha da güclənmişdi. Bunun əsas səbəbi kimi bölgədə anarxiyanın tüğyan etməsi, erməni-bolşevik təcavüzünün genişlənməsi və müsəlman əhalisinin təhlükəsizliyinin təmin olunması zərurətinin yaranmasını gostərə bilərik.

Hadisələrin sonrakı inkişafı Almaniya ilə Osmanlı dövləti arasında etimadsızlığın tamamilə aradan qalxmadığını aşkar şəkildə göstərmiş oldu. Bu isə Antanta ölkələrinin istər Cənubi Qafqazda, istərsə də müharibə cəbhələrində planlaşdırılmış hərbi-strateji tədbirlərin reallaşdırmaları üçün əlverişli zəmin yaratmış olurdu.

## ƏDƏBİYYAT


1. Эрцбергер М. Германия и Антанта (воспоминания бывшего германского министра финансов). Москва-Петроград: Государственное издательство, 1923, 483 с.
2. Ключников Ю.В., Сабанин А.В. Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч. II. От империалистической войны до снятия блокады с Советской России. М.: Литиздата НКИД, 1926, 441 с.
3. Алиев Г.З. Турция в период правления младотурок. М.: Наука, 1972, 388 с.
4. Лудшувейт. Е.Ф. Турция в годы первой мировой войны. М.: Московский Университет, 1966, 386 с.
5. Записки Джемал паши (1913-1919 гг.). Тифлис: Заккрайкома РКП(б), 1923, 257 с.
6. Готлиб В.В. Тайная дипломатия во время Первой мировой войны. М.: Социально-экономическая литература, 1960, 603 с.
7. Евдокимова Н.П. Между Востоком и Западом. Проблема сепаратного мира и маневры дипломатии австро-германского блока в 1914-1917 гг. Ленинград: ЛГУ, 1985, 166 с.
8. Черчилль У. Мировой кризис. М.; Л.: Госвоениздат, 1932, 328 с.
9. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı: "GARISMA" MMC, 2009, 576 s.


## ВОЗНИКНОВЕНИЕ НАПРЯЖЕННОСТИ В ГЕРМАНО-ТУРЕЦКИХ СОЮЗНИЧЕСКИХ ОТНОШЕНИЯХ ЛЕТОМ 1918 ГОДА


**Р.Г.ГАТАМОВ**


## РЕЗЮМЕ


Весной 1918-года Германия стремилась прибрать в свои руки Бакинский нефтяной район. Не имея достаточных вооруженных сил для захвата Баку, немецкое военное и политическое руководство предпочтение отдавало на дипломатические мероприятия с большевистской Россией. Двухсторонние сепаратные переговоры начались по инициативе советского правительства и велись в течение трех месяцев в тайне от других участников государств подписавшие Брест-Литовский мирный договор. Османская Турция, учитывая тяжелое положение на фронтах, а также катастрофическая ситуация внутри страны, все чаще стремилась к сепаратному миру с противником.

**Ключевые слова:** Первая мировая война, сепаратные мирные переговоры, Османская империя, Германия, Южный Кавказ, Антанта

## EMERGING OF TENSIONS IN THE RELATIONS BETWEEN OTTOMON-GERMAN ALLIANCE IN THE SUMMER OF 1918

**R.G.HATAMOV**

### SUMMARY

In the spring of 1918 Germany was trying to occupy Baku's oil fields. The German authorities were trying to create diplomatic relations with Bolshevik Russia as its military force was inefficient to seize Baku. The Soviet government confidentially started bilateral separate negotiations without notifying other state signatories of the Brest-Litowsky peace agreement. Having regard to the severe situation at the front lines and within the country the Ottoman Government was eager to sign a separate peace agreement with the enemies.

**Key words:** World War I, seperate peace negotiations, Ottoman Emprie, Germany, Southern Caucasus, Entante